HAQQIN SÖZÜ – SÖZÜN HAQQI 15 APREL 2019-CU İL/ №007 (87)

# Yeni YOL

yeni_yol@mail.ru / İCTİMAİ QƏZET / იენი იოლი საზოგადოებრივი გაზეთი / qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur

2


ƏXLAQ MAŞINI VƏ YA ƏXLAQ MARŞRUTKASI

3


TELEVİZİYA VƏ İSANLAR ÜZƏRİNDƏKİ TƏSİRİ

4


QIZSAN SƏN, OTUR OTURDUĞUN YERDƏ

4


LEKSİKOLOJİ QƏTL

## TÜRKİYƏ FRANSADA "ERMƏNİ SOYQIRIMI" GÜNÜ TƏSİS OLUNMASINA REAKSİYA VERİB




"Fransada qondarma "erməni soyqırımı" günü təsis edən prezident Emmanuel Makron Əlcəzairdə müharibə zamanı kütləvi qətlləri xatırlamalıdır. Fransa öz qaranlıq tarixinə baxsın, Türkiyəyə dərs verməsin". Bu fikirləri Türkiyənin xarici işlər naziri Mevlüt Çavuşoğlu NATO Parlament Assambleyası çərçivəsində Antalyada keçirilən Rouz-Rot seminarında fransız deputat Sonia Kriminin PKK barədə mülahizələrinə cavab olaraq söyləyib.

"Siz Türkiyəni cəzalandırmağa çalışırsınız, söz azadlığından danışırsınız, lakin Makronun fəaliyyəti beynəlxalq hüquqa ziddir. Həmin hadisələri soyqırım kimi qiymətləndirmək üçün məhkəmənin qərarı olmalıdır, amma o, yoxdur. Bu qərar hansı motivlərə görə qəbul edilib? Bunun yeganə izahı populizmdir. Biz Əlcəzair və Ruanda hadisələrini unutmamışıq. Makron bunu xatırlasın", - deyə M.Çavuşoğlu bildirib.

Türkiyə XİN başçısının çıxışı zamanı xanım parlamentari Sonia Krimi salonu tərk edib.

Xatırladaq ki, Emmanuel Makron aprelin 24-nün Fransada qondarma "erməni soyqırımı" qurbanlarının xatirə günü kimi qeyd olunması barədə fərman imzalayıb.

Əlcəzair 130 ildən çox Fransanın koloniyası olub. 1954-cü ildə ölkədə başlayan müstəqillik uğrunda müharibə 1962-ci ildə atəşkəs, sonra isə Əlcəzairin müstəqillik əldə etməsi ilə nəticələnən Evian müqavilələri ilə başa çatıb. Müharibə, müxtəlif məlumatlara görə, 300 min – 1 milyon insanın həyatına son qoyub.

## İRAKLİ KOBAXİDZE TBMM-NİN SƏDRİ MUSTAFA ŞENTOPLA GÖRÜŞÜB



Gürcüstan parlamentinin sədri İrakli Kobaxidze Türkiyə Böyük Millət Məclisinin (TBMM) sədri Mustafa Şentopla görüşüb.

İ.Kobaxidze M.Şentopu TBMM-nin sədri vəzifəsinə təyin olunması münasibətilə təbrik edib və fevralda Gürcüstan heyətinin Ankaraya səfərinin əhəmiyyətini və nəticələrini qeyd edib. Görüşdə tərəflər müxtəlif sahələrdə tərəfdaşlıq əlaqələrinin möhkəmləndirilməsindən danışıblar.

TBMM-nin sədri iki ölkə arasında yaradılmış iqtisadiyyat və ticarət üzrə komissiyanın fəaliyyətinin aktivləşdirilməsinin vacibliyini diqqətə yetirib. O qeyd edib ki, xalqlar arası əlaqələr möhkəmləndirilməlidir və bu məqsədə nail olmaq üçün yüksək dərəcəli görüşlərin xüsusi əhəmiyyəti var.

Mustafa Şentop Türkiyə tərəfinin Gürcüstanın suverenliyi və ərazi bütövlüyünü dəstəklədiyini və Gürcüstan hakimiyyətinin sülh siyasətini alqışladığını bildirib. İrakli Kobaxidze Mustafa Şentopu Gürcüstana dəvət edib.

## 9 APREL FACİƏSİNDƏN 30 İL ÖTÜR



9 Aprel faciəsindən 30 il ötür. 1989-cu ilin 9 aprel tarixində Tbilisinin mərkəzi Rustaveli prospektində dinc mitinqin Sovet hərbi qoşunları tərəfindən amansızcasına dağıdılması nəticəsində 21 nəfər həlak olub, yüzlərlə insan yaralanıb. Həmin hadisələrdən iki il sonra – 1991-ci ilin aprelin 9-da milli hərəkatın lideri Zviad Qamsaxurdia Gürcüstanın müstəqilliyinin bərpa olunduğunu elan edib.

9 Aprel Gürcüstanda Dövlət Müstəqilliyinin bərpası haqqında Aktın qəbul olunduğu və milli birlik, vətəndaş həmrəyliyi günü kimi qeyd edilir, həmçinin vətən uğrunda canlarından keçənlərin xatirəsi yad edilir.

Bu il Tbilisidə yerləşən 6 küçəyə 9 apreldə həlak olan 6 qadının – Manana Loladze, Tamuna Dolidze, Tina Enukidze, Mzia Cincaradze, Tamar Mamulaşvili və Eliso Cipaşvilinin adları veriləcək.

## GÜRCÜSTAN ESTONİYA, İSRAİL, MOLDOVA VƏ KÜVEYTDƏKİ SƏFİRLƏRİ GERİ ÇAĞIRIR



Baş nazir Mamuka Baxtadzenin qərarına əsasən, Gürcüstanın Estoniya, İsrail, Moldova və Küveytdəki səfirləri geri çağırılacaq.

Dörd səfirin işdən azad olunması ilə bağlı Mamuka Baxtadze ölkə prezidenti Salome Zurabişviliyə müraciət edib.

Müraciətə əsasən, Gürcüstanın Estoniyadakı səfiri bu ilin iyunun 1-dən, İsrail və Küveytdəki səfirləri bu ilin iyulun 1-dən, Moldovadakı səfiri isə 2020-ci ilin yanvarın 1-dən etibarən tutduqları vəzifələrdən azad olunacaqlar.



# ƏXLAQ MAŞINI VƏ YA ƏXLAQ MARŞRUTKASI

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

**"Moral machine" (Əxlaq maşını) adlı bir sayt var. On dildə fəaliyyət göstərən saytın əsas məqsədi maşınların mənəvi dilemma şəraitində hansı qərarları qəbul etməsi ilə bağlı ictimai rəyin toplanması və müzakirəsindən ibarətdir. Saytda müxtəlif situasiyalarda maşınlarla insanların qarşılaşmasından ibarət şəkilli testlər verilmişdir ki, istifadəçi iki vəziyyətdən birini seçib səs verərək öz fikrini bildirmiş olur. Yəni, guya ki, siz sürücüsüz və maşını idarə edirsiz. Birdən qarşınıza iki təhlükə çıxır. Siz ikisinin də nəticəsi ölüm olan bu variantlardan birini seçməlisiz. Yolun bir tərəfində yaşlılardır, digər tərəfində isə gənclər. Maşını saxlamaq mümkün deyil, mütləq verilmiş bu iki variantdan birini seçib maşını ya yaşlıların, ya da gənclərin üzərinə sürməlisiniz, ya yaşlıları öldürməlisiniz, ya gəncləri.**

Bu testə cavab verənlərin sayı coğrafi baxımdan fərqli olub. Məsələn, avropalılar və amerikalılar gəncləri xilas etməyi seçib, asiyalılar isə yaşlıları seçərək maşını gənclərin üzərinə sürüb. Bu, həm də fərqli coğrafiyalarda, mədəniyyətlərdə insanların hansı sosial psixologiyaya malik olduqlarının göstəricisidir. Avropalı, amerikalı bu dilemma qarşısında üstünlüyü gəncliyə – gələcəyə, yeniliyə verirsə, asiyalı gəncliyi öldürərək köhnəliyi, keçmişi seçir.

Bizim yaşadığımız cəmiyyətdə də uşaqları, yeniyetmələri, gəncləri natamam hesab edərək onların fikirlərini nəzərə almır, seçimlərinə hörmət etmirlər. Ümumiyyətlə, cəmiyyətimizdə gənclərə inam, etibar yoxdur. Vəzifədirsə mütləq yaşlıya verilməlidir, məsləhətdirsə yaşlıdan alınmalıdır, sözdürsə yaşlılar danışmalıdır və sair. Atalar sözlərimizdəki böyük-kiçik, yaşlı-cavan münasibətlərinə aid yüzlərlə kodlaşdırılıb şüuraltımıza yerləşdirilmiş ifadələr, cümlələr buna bir misaldır. Bunun xımı kasad sement və qumla ailədə tökülür, məktəbdə bu xım üzərindən ala-yarımçıq bina inşa edilir, cəmiyyətdə isə bu zəif bina uçurulur.

Bizim "əxlaq maşınlarımız" həmişə gənclərin üzərinə sürülür, gəncləri əzib keçir. Çünki bizim "əxlaq maşınlarımız" köhnə "vıpuskadır", texniki baxışdan keçə bilməz, Avro standartlara uyğun deyil, müasir yollara hesablanmayıb, havanı çox çirkləndirir. Amma yenə də mövcuddur. Bu "maşınları" idarə etmək üçün lazım olan sürücülük vəsiqəsi yalnız yaşlılardadır. Bu "sürücülərin" qayda pozuntularına heç qanun da müdaxilə edə bilmir. Onların öz yazılmamış avtoşluq qaydaları var.

Yuxarıda adını çəkdiyim saytla tanış olduqda, ötən günlərdə marşrutkada (maşında) başımıza gələn bir hadisəni yenidən xatırladım. Ümumiyyətlə, bu marşrutkalar yol adamlarının yaralı yeridir. Ötən sayların birində bu haqda yazsam da, hər gün marşrutkalarda qarşılaşdığım xoşagəlməz hadisələri yazmaqla bitməz.

Deməli, aktyor dostumla marşrutkada oturub Tiflisə gedirdik. Bütün yerlərin tutulmasına baxmayaraq acgöz sürücü hər addımbaşı saxlayıb adamları mindirirdi. Sürücülərin bu hərəkətinə dəfələrlə etirazlar olsa da, yenə öz işlərindədirlər. Marşrutkalara dövlət nəzarəti olmadığı üçün sürücülər siqaret də çəkirlər, əlavə sərnişinlərlə marşrutkanı doldururlar, isdədikləri sürətlə maşını idarə də edirlər və sair.

Nə isə, oturacaqların tutulmasına və ayaq üstə bir neçə sərnişinin olmasına baxmayaraq, sürücü maşını 4-5 nəfər üçün yenə saxladı. Yaşlı qadınlar dar marşrutkaya birtəhər doluşdular. Mən, məsələn, maşında oturmaq üçün yer olmayanda minmirəm, bu, Tiflis, Rustavi marşrutkalarında da belədir. Sürücü saxlasa da, yer yoxdursa minmirlər, hələ yer olmadığı üçün saxladığına görə sürücüyə etiraz edənlər də olur, insanlar bunu özlərinə hörmətsizlik kimi qəbul edirlər. Avropada isə yaşlı adama yer verməmk ona qocalıb əldən düşdüyünü, yardıma ehtiyacı olduğunu demək kimi çıxır və onlar bunu özlərinə təhqir bilirlər. Bizim regionlarda isə hörmətsizlik ictimai nəqliyyatda yaşlılara yer verməməkdir. Ona görə də marşrutkalarımızda basabasdır.

Yaşlı qadın, ya kişi, görür ki maşında yer yoxdur, yenə də minir. Çünki maşında boş oturacaq olmasa da, oturan gənclər ki var. Yaşlı mindisə, gənc tez durub yerini ona verməlidir. Yoxsa həmin yaşlı dayı, ya xala gəlib o gəncin düz başının üstündə "Domokl qılıncı" kimi durub atmacalı sözlərlə gəncin gününü burnundan gətirəcək.

Oturmağa yer tapmayan yaşlı qadınlar başladılar *indiki* gənclərin tərbiyəsizliyindən danışmağa, hətta biri oturan gənci göstərdi ki, "şagirdim olub, gör heç yerindən tərpənirmi". Bir başqasını göstərib müəllim uşağı olduğunu dedilər və bu "əxlaq marşrutkasının" sükanını əllərinə alıb hər istiqamətdən gənclərin üstünə sürməyə başladılar. Dostumla mən bunlara dözə bilməyib marşrutkanı dayandırıb düşdük.

**Əlbəttə, mən demirəm ki, yaşlılara yer verilməsin. Əvvəla, yaşlı oldu, ya cavan, avtobusda yer yoxdursa minməsin, minməməlidir də. İkincisi də, istəyən onsuz da yer verəcək, sadəcə olaraq bu, ürəkdən gəlməlidir, zorla, minnətlə olmamalıdır. Zorla, məcbur yerini vermiş gənc o yaşlıya nifrət edəcək və yaş diskriminasiyasına məruz qalmış gənclik heç vaxt yaşlılarla YOL getməyəcək (sözün hər iki mənasında).**

## AŞPA PREZİDENTİ GÜRCÜSTANA SƏFƏR EDƏCƏK




Avropa Şurası Parlament Assambleyasının (AŞPA) prezidenti Lilian Mori Paskye aprelin 29-30-da Gürcüstana səfər edəcək. Bu barədə AŞPA prezidenti baş nazir Mamuka Baxtadze ilə Strasburqda keçirdiyi görüşdən sonra bildirib.

Tbilisiyə səfəri çərçivəsində L.M.Paskye Gürcüstanın Avropa Şurasına (AŞ) üzvlüyünün 20-ci ildönümünə həsr olunmuş tədbirlərdə iştirak edəcək.

Görüşdə tərəflər Gürcüstan və Avropa Şurası arasında qarşılıqlı əməkdaşlıq məsələlərini müzakirə edərək, son illər Gürcüstanın demokratiya və islahatlar sahəsində əldə etdiyi nailiyyətlədən danışıblar.

## TBİLİSİDƏ SÜLH FORUMU KEÇİRİLƏCƏK

"2020-ci ilin yazında Gürcüstanın paytaxtı Tbilisi şəhərində Sülh Forumu keçiriləcək". Bu barədə Gürcüstanın baş naziri Mamuka Baxtadze Avropa Şurası Parlament Assambleyasının (AŞPA) sessiyasında çıxışı zamanı bildirib.




Onun sözlərinə görə, Gürcüstanın məqsədi ölkələrə bu günə qədər istifadə olunmamış imkanlardan yararlanmağa şərait yaratmaqla bütün bölgədə sülh və sabitliyə töhfə verməkdir.

M.Baxtadze Gürcüstan-Rusiya münaqişəsinə də toxunub. O, Rusiyanı 2008-ci ildə əldə olunmuş atəşkəs haqqında razılıq üzrə öhdəlikləri yerinə yetirməməkdə ittiham edib. Baş nazir münaqişənin sülh yolu ilə həll olunacağına inandığını vurğulayıb.

## ƏVVƏLKİ PREZİDENT İQAMƏTGAHINA YENİ STATUS VERİLİB



Tbilisinin Avlabar rayonunda yerləşən prezident iqamətgahının statusu dəyişdirilib. Bu barədə Gürcüstan prezidentinin mətbuat katibi Xatia Moistsrapişvili bildirib.

Onun sözlərinə görə, iqamətgah Dövlət Mərasimləri Sarayı kimi fəaliyyət göstərəcək.

"Əvvəlki iqamətgah yeni funksiya yerinə yetirəcək. Bununla bağlı prezident, hökumət və parlament arasında razılıq əldə olunub. Hökumət bu barədə müvafiq qərar qəbul edəcək", - bildirib X.Moistsrapişvili.

Qeyd edək ki, Gürcüstan prezidenti Salome Zurabişvili sabiq prezident Giorgi Marqvelaşvilinin Avlabar iqamətgahından imtina edib. O, Tbilisinin Atoneli küçəsindəki prezident sarayında yerləşib. Avlabardakı prezident sarayı 2004-2009-cu illərdə eks-prezident Mixeil Saakaşvilinin təşəbbüsü ilə inşa olunub.

## UŞAQ HÜQUQLARI MƏCƏLLƏSİNİN POZULMASINA GÖRƏ HANSI NÖV CƏRİMƏLƏR TƏYİN OLUNACAQ?

Uşaq Hüquqları Məcəlləsinin pozulmasına görə cərimələr təyin olunacaq. Dəyişikliklər İnzibati Xətalar Məcəlləsinə daxil olur. Qanun 2020-ci ilin 1 yanvarından qüvvəyə minəcək.

Qanun layihəsinə əsasən, yetkinlik yaşına çatmamış şəxsə təhsil almaqda mane olmaq, onun sağlamlığına, fiziki, zehni, mənəvi, emosional və sosial inkişafına zərərli olan işlərə qoşmaq və ya istifadə etmək 1000 lari dəyərində cəriməyə səbəb olacaq. Hüquqi şəxs olduğu halda bu cərimə 2000 lari dəyərində nəzərdə tutulub.

İnternet vasitəsi ilə uşaqlar üçün təhlükə daşıyan məlumatların yerləşdirilməsi, eləcə də ümumtəhsil müəssisələrində, kitabxanalarda və uşaqlar üçün xüsusi müəssisələrdə uşaqların internet şəbəkəsinə əlçatanlığı qaydalarının pozulması və ya nəzarət səlahiyyəti olan orqanların qərarının yerinə yetirilməməsi 1000 lari dəyərində cəriməyə səbəb olacaq. Əgər həmin hərəkət təkrar törədilərsə 3000 lari dəyərində cəriməyə səbəb olacaq.

Kütləvi əyləncə mərkəzlərinə (gecə klublarına), internet kafelərə uşaqların buraxılması qaydasını pozan obyektlər 1000 lari dəyərində cərimələnəcəklər. Hərəkət təkrar edilərsə cərimə 3000 lari olacaq.

18 yaşa qədər şəxsləri spirtli içkilərin, narkotik və psixotrop maddələrin, tütün məhsullarının istehsalı, daşınması və ya satışı olan yerlərdə işə cəlb etmək 5000 lari dəyərində cəriməyə səbəb olacaq. Əgər bu maddənin birinci hissəsi ilə nəzərdə tutulmuş hərəkət təkrar törədilərsə cərimə 10000 lari olacaq.

Uşaq üçün təhlükəli məlumat daşıyan jurnal-qəzetlərin və digər çap vasitələrinin uşaqlara satılması, hədiyyə edilməsi və ya başqa formada əlçatanlığı 500 lari dəyərində cəriməyə səbəb olacaq. Əgər həmin hərəkət təkrar olunarsa cərimə 1000 lari olacaq.

## GÜRCÜSTANIN TÜRKİYƏDƏKİ SƏFİRİ TÜRKİYƏNİN XARİCİ İŞLƏR NAZİRİ İLƏ GÖRÜŞÜB



Aprelin 9-u Gürcüstanın Türkiyədəki fövqəladə və səlahiyyətli səfiri Giorgi Cancğava Türkiyə Cümhuriyyətinin xarici işlər naziri Mevlüt Çavuşoğlu ilə görüşüb. Görüşdə tərəflər iki ölkə arasındakı əməkdaşlıqda gündəmdə olan məsələləri müzakirə ediblər. Türkiyənin xarici işlər naziri bir daha Gürcüstan üçün vacib məsələlərə dəstək olduqlarını bildirib.

Görüşün sonunda tərəflər strateji tərəfdaşlığı daha da möhkəmləndirmək və siyasi, eləcə də iqtisadi əməkdaşlığı inkişaf etdirməyə hazır olduqlarını bildiriblər.

Giorgi Cancğava Mevlüt Çavuşoğluna Gürcüstanın ərazi bütövlüyü və suverenliyinə, həmçinin Gürcüstanın NATO-ya üzv olması məsələsində göstərdikləri fəal dəstəyə görə təşəkkür edib.

## TÜRKİYƏ XİN İTALİYA PARLAMENTİNDƏ QONDARMA "ERMƏNİ SOYQIRIMI"NIN TANINMASINI PİSLƏYİB

Türkiyənin Xarici İşlər Nazirliyi İtaliya parlamentində qondarma "erməni soyqırımı"nın tanınması ilə bağlı bəyanat yayıb.





Bəyanatda deyilir: "İtaliya Nümayəndələr Palatasının aprelin 10-da qəbul etdiyi qərar erməni iddialarından daxili siyasi məqsədlər üçün istifadə olunmasının daha bir örnəyidir".

Nazirlik bəyan edib ki, bu qətnamə İtaliyanın sağ təmayüllü Leqa partiyası tərəfindən hazırlanıb. "Erməni iddialarına dair qətnamənin İtaliyadakı seçkilər ərəfəsində müzakirəyə çıxarılması və qəbul olunması həmin sənədin siyasi məqsəd daşıdığını göstərir və bu, tarixi faktların kobud şəkildə təhrif olunmasıdır".

Türkiyənin xarici işlər naziri Mevlüt Çavuşoğlu İtaliya parlamentinin sözügedən qətnaməsinin heç bir hüquqi qüvvəsi olmadığını bildirib və əlavə edib ki, tarixi faktları siyasiləşdirən bütün cəhdlər kimi, Nümayəndələr Palatasının bu qərarı da İtaliyada milliyyətçi Leqa partiyasının Avropa Parlamentinə seçkilər ərəfəsində ucuz xal qazanmasından başqa bir şey deyil.

Türkiyə prezidentinin sözçüsü İbrahim Kalın da məsələyə münasibət bildirərək qeyd edib ki, sözdə "soyqırımı" qətnaməsi tarixi faktların inkar edilməsi və ermənilərlə türklər arasında yeni düşmənçilik toxumlarının səpilməsi cəhdidir".

Hakim Ədalət və İnkişaf Partiyasının sözçüsü Ömər Çəlik isə bildirib ki, İtaliya bu qərarla Türkiyə və Ermənistan arasında münasibətlərin daha da gərginləşməsini istəyən erməni diasporunun oyununa alət olub.

## GÜRCÜSTAN RUSİYADAN QAZ ALACAQ



"Gürcüstan az miqdarda Rusiyadan qaz idxalına dair bu ölkənin "Qazprom" şirkəti ilə razılığa gəlib". Bunu jurnalistlərə Gürcüstanın iqtisadiyyat və davamlı inkişaf naziri Giorgi Kobulia bildirib.

O, qazın həcmi və qiymətini qeyd etməyib.

Qeyd edək ki, hələ bu ilin fevral ayında nazir G.Kobulia Rusiyadan qaz idxal etmək niyyətində olduqlarını bildirərək bunu qaz idxalını şaxələndirmək məqsədi ilə əsaslandırmışdı. Gürcüstan təbii qaz ehtiyaclarını, əsasən, idxal hesabına ödəyir. Gürcüstanın qaz təminatının, demək olar ki, hamısı Azərbaycanın payına düşür.

Gürcüstan 2006-cı ildən Rusiyadan qaz idxal etmir. Lakin Rusiyadan Ermənistana tədarük edilən təbii qazın 10%-ni tranzit haqqı qismində əldə edir. 2017-ci ildə Rusiya tranzit haqqını pul və qismən də xammal, 2018-ci ildə isə pul şəklində ödəyib.

## TELEVİZİYA VƏ İSANLAR ÜZƏRİNDƏKİ TƏSİRİ



Hacı BƏKİROĞLU
hacibakir@mail.ru

**Televiziya birdən çox xüsusiyyətə sahib olması səbəbiylə ən təsirli olma mövqeyini saxlamaqdadır. Daşıdığı xüsusiyyətlər və təqdim etdiyi proqramlar cəmiyyətdə çox istiqamətli təsirlərin meydana gəlməsinə zəmin hazırlamaqdadır. Xüsusilə silsiləvi seriallar, filmlər və bəzi proqramların bu mövzuda çox təsirli bir şəkildə rol oynadığı görülməkdədir. Yeni doğulan uşaqlara seriallardakı qəhrəmanların adının verilməsi və ya mənfi xarakterizə ediləcək rol sahiblərinin adının uşaqlara verilməməsi bu təsirlənmənin göstəricilərindəndir. Bu proqramların müəyyən bir period içərisində təkrarlanaraq verilməsi və tamaşaçılarının çoxluğu təsirlərinin artmasına səbəb olur.**

Psixoloqların verdiyi məlumata görə, uşaqlarımız ildə təxminən 900 saatını məktəbdə, 1200 saatını televiziya qarşısında keçirməkdədir. Uşaqlarımız ana-atalarından və məktəbdən daha çox televiziyanı və ekranı görməkdədir.

Televiziyanın insanlar üzərində bir çox mənfi təsiri var. Bu təsirdən isə ən çox zərər görənlər şübhəsiz ki, uşaqlardır. Aparılan araşdırmalara görə televiziya uşaqlarda geç danışma, ünsiyyət qurmada və diqqət-konsentrasiyada çətinlik çəkmək kimi bir çox problemi meydana gətirməkdədir. Xüsusilə körpəlik çağında televiziya qarşısında keçirilən uzun zaman körpələrin zehni, duyğusal, ictimai və dil inkişaflarına olduqca zərər verməkdədir. Saniyədə onlarla kadrın keçdiyi ekrana sabitlənən uşaqlar üçün gerçək həyatın ritmi çox yavaş və darıxdırıcı/sıxıcı gəlməkdədir. Davamlı ekran başında vaxt keçirən uşaqlar ekrandan uzaq qaldıqlarında sıxılar və diqqətlərini toplamaqda çətinlik çəkərlər. Ekran qarşısında passiv bir tamaşaçı mövqeyində olduqları üçün, qaçaraq-oynayaraq atmaları lazım olan enerjini lazımınca istifadə edə bilməzlər. İstifadə edilməyən enerjilər başqa problemlərə gətirib çıxarmaqdadır. Ekran səbəbiylə inkişaf normal axışını itirməkdədir.

Televiziya proqramları arasında yayımlanan və yetişkinlərə yönəlik göstərilən seriallar uşağın duyğu dünyasına və şəxsiyyət inkişafına olduqca zərər verməkdədir. Çünki televiziya ilə ən çox bir arada düşünülən proqram seriallardır. İndiki vaxtda demək olar ki, eyni ssenaridə çəkilən seriallar, ümumiyyətlə, bütün ailənin ekran başında olduğu saatlarda ekrana gəlməkdədir.

Sözdə uşaqlar üçün çəkilmiş olan seriallardakı qəhrəmanların xüsusiyyətlərinə baxdığımızda bunlar, ümumiyyətlə, qısqanc, ehtiraslı, bir-birini qəbul edə bilməyən, hirsli və yaşına aid olmayan duyğuları yaşayan obrazlardır. Xarakterlərin hadisələr qarşısındakı səhv tutumları, mənfi davranışları, gerçək həyatda işə yaramayacaq həll yolları, təhrif edilmiş ədalət anlayışı uşaqlara rol modeli olaraq təqdim edilməkdədir. Uşaqlar həyatlarına qəhrəman olaraq ana-atalarını deyil, serial xarakterlərini almaqdadırlar. Əxlaqi dəyərlərin və insani xüsusiyyətlərin qazanılması lazım olan yaşlar, virtual xarakterlər və götürmə şəxsiyyətlərlə kölgələnməkdədir.

İndi isə sizə qısa olaraq bir pedaqoji araşdırma mərkəzinin uşaqlar serial izləyə bilərmi? Serial izləmələrində nələrə diqqət edilməlidir? Serial izləmə yaşı neçədir? suallarına verdikləri cavabları təqdim edirik:

0-3 yaş qrupundakı uşaqlar ekrandan uzaq qalmalıdır. Bu yaş qrupunda izlənilən reklamların, cizgi filmlərinin, serialların uşaq tərəfindən necə kodlaşdırıldığı bilinməməkdədir. Ekran görünüşlərinin körpələrin beyin inkişafına zərər verdiyini göstərən araşdırmalar var. Bu səbəblə 0-3 yaş arasındakı uşaqlar nəinki seriallardan, hətta bütün ekran növlərindən qorunmalıdır.

3-6 yaş: Bu yaşdakı uşaqlar ən çox gündə 20-30 dəqiqə ekran qarşısında (TV, telefon, kompüter daxil) vaxt keçirə bilərlər. Bu dövrdə uşaqlar fantastika ilə gerçəyi ayırd edə bilməzlər. Gözləriylə gördüyü hər şeyi gerçək sanarlar. Serialda gördüyü şiddət həqiqət sayarlar. Uşaqlar bu yaş qrupunda təqlidlə öyrənərlər. Ekran uşağa gördüyünü təqlid etməkdən başqa bir variant buraxmaz. Uşaq serialdakı yalanı, şiddəti, ehtirası, pisliyi, cinayət törətməyi model olaraq götürər. Bu səbəblə seriallar qətiliklə həyatlarında olmamalıdır.

6-9 yaş: Ekran qarşısında keçirilən müddət 40-50 dəqiqəni keçməməlidir. Uşağın bu dövrdə zehin və dil bacarıqları güclənər. Bu yaş qrupundakı uşaqlar da serial izləməməlidir.

9-12 yaş: Ekran qarşısında keçirilən müddət 60-70 dəqiqəni keçməməlidir. Bu yaş qrupunda ətraf tərəfindən təsdiq görmək, yaxşı uşaq olmaq əhəmiyyətlidir. Təməl motivasiya müvəffəqiyyətdir. Uşağın əlaqə qurma və əlaqəni davam etdirmə bacarıqlarını, rol model olaraq götürdüyü serial xarakterləri təyin edə bilər. Bu yaş qrupundakı uşaqlar seriallarda iştirak edən "ana, ata, kişi, qadın, uşaq" kimi obrazlarla öz həyatını müqayisə edib çox rahatlıqla bədbəxt ola bilər. Bu yaş qrupunun serial izləməsi yenə doğru deyil.

12 yaş: Ekran qarşısında keçirilən müddət 120 dəqiqəni keçməməlidir. Bu yaş qrupu artıq cəmiyyətin quruluşuyla, fəlsəfəsiylə, siyasətlə maraqlanar. Mücərrəd anlayışları anlayaraq təsirli bir şəkildə istifadə edə bilər. Yetkinlik deyə biləcəyimiz bu dövrdə uşağın maraq/əlaqə sahələri genişlənmiş və uşaq bir çox mənada azadlıq qazanmışdır. Cinsəllik bu dövrdə əhəmiyyət qazanar və uşaq cinsəlliklə əlaqədar şeylərə maraq duyar. Bu yaş qrupunda seriallar bir neçə məzmunda uşaqlara təsir etməkdədir. Seriallar maddə asılılığına, spirt və tütün məhsullarına duyulan marağı cəzb edə bilməkdədir. Cəmiyyətin ailə quruluşuna tərs olan seriallar gənclərin ailə və əlaqə qəbulunu poza bilməkdədir. Yenə bu yaş qrupunda internet istifadəsi daha məşhurdur və internet serialları da bu yaş qrupunun seçimləri arasında yer almaqdadır. Bu tərz seriallardan sonra gənclər gündəlik həyata dönməkdə və normal əlaqələrinə davam etməkdə çətinlik çəkməkdədirlər.

# QIZSAN SƏN, OTUR OTURDUĞUN YERDƏ

*Bir insana edə biləcəyiniz ən böyük pisliyi, onu həyata bağlayan xəyallarını əlindən alaraq edə bilərsiniz. İnsanın həyat eşqi, onun hədəfləri və gələcəyə dair xəyalları ilə düz-mütənasibdir. Onu xəyallarından məhrum etdinizsə, əmin olun, həyat eşqindən də məhrum etmiş olacaqsınız.*

İnsanın həyatda bir idealı, məqsədi və hədəfinin olmağı yaxşı bir şeydir. Məqsədi olan şəxs, həmin məqsədinə nail olmaq üçün özünə hədəflər qoyar və bu hədəfləri ilə birlikdə daim öz üzərində çalışar və özünü formalaşdırar ki, inkişaf etsin. Hədəf çıraq kimidir. Qərarsızlıq buludları həmin şəxsin ətrafına kölgə saldığı zaman bu çıraq onun yoluna işıq saçar və ona doğru yolu seçə bilməsi üçün kömək edər. Bəs bizim regionda gələcəyə dair bir hədəfi olub və həmin hədəfinin arxası ilə əmin addımlarla gedə bilən neçə nəfər sadalaya bilərsiniz?

Gənclər üzərindən misal göstərməli olsaq, bizim buralarda hər-hansı bir məqsədi olan çox az insanla qarşılaşırıq. Niyə deyə soruşa bilərsiniz, çünki təəssüflər olsun ki, gənclərimizdə özünə inam əksər hallarda ya düzgün formalaşmır, ya da ümumiyyətlə formalaşmır. Bir insanın "mən bunu edəcəm; mən buna nail olacam; mən 5 il sonra özümü filan universitetin filan fakültəsini bitirdikdən sonra həmin ixtisasın sahibi olaraq görürəm" deyə bilməsi üçün ilk öncə bunu həqiqətən bacaracağına inamı olmalıdır. Özünə inanmaq həmin hədəfə nail olmaq üçün atılan ilk və ən vacib addımdır.

Özünə inamı olmayan şəxsin cəsarəti olmaz; cəsarəti olmayan insan əmin olduğu şeylərdən belə şübhə edər; şübhə içərisində qalan insanın gələcəyə dair məqsədi olmaz; məqsədi olmayan insanın hədəfi olmaz; hədəfi olmayan insan isə nəyi necə etməli olduğunu bilməz və beləcə, həyatda hər zaman bir addım geridə qalar.

Uşaqda özünə inamın formalaşması, valideynlərinin onu böyütmə şəklindən asılıdır. Bəs bizim uşaqlar düzgünmü formalaşır? Bu sualın cavabı naməlum qalmaqda davam edir. Sizə ən primitiv halda belə bir misal çəkim, bir uşaq və ya bir gənc, öz hədəfini, məqsədini güc-bəlayla cəsarətini toplayıb dilə gətirdiyi zaman, o, valideynlərindən ona dəstək olmalarını, ona inanmalarını gözləyir. Əgər valideynləri ona inanıb və onu bu yolda dəstəkləyərsə, o gəncin cəsarəti bir idisə, indi on olar və hədəfinə doğru əmin addımlarla irəliləyər. Yox, əgər valideyn övladına dəstək olmaq əvəzinə "O nə deyər? Bu nə deyər? Camaat nə deyər?" kimi ***kütlə psixologiyasına*** xas olan şeylərlə uşağın həvəsini qırarsa, onda o uşaqda nə cəsarət qalar, nə də özünə inam.

Sizə başıma gələn bir əhvalatı danışım. İllərdən 2016-cı il idi. Düşünən Vətəndaş təşkilatımızda dostlarımızla qərara gəldik ki, Gürcüstanın rayon və ucqar kəndlərinə səfərlər edib məktəb şagirdləri ilə görüşək. Fəaliyyətlərimiz barədə məlumat verib nələrə ehtiyacları olduğunu öyrənək. Mart ayı idi, Qardabani rayonunda görüş təşkil etdik. Görüşə 3 ya 4 kənddən aşağı-yuxarı 30 şagird gəlmişdi. Onları fəaliyyətlərimizlə tanış etdik, qəbul imtahanları, fakültələrlə bağlı məlumat verib, suallarını cavablandırdıq; müxtəlif interaktiv oyunlarla onların çəkindikləri barierlərini aşmaları üçün kömək etdik, aramızda səmimi bağ qurub onların düşüncələrini dilə gətirmələri üçün çalışdıq. Çox həyəcanlı idilər. Sanki illərdir bu anı gözləyirdilər. Sanki neçə ildir birilərinin gəlib onlara "xəyalın nədir, kim olmaq istəyirsən, nəyə həvəsin var, nəyi bacarırsan?" suallarının verilməsini gözləyirlərmiş.



Biri dedi, mən həkim olmaq istəyirəm; biri dedi, mən vəkil olmaq istəyirəm; biri dedi, mən gürcü dili müəllimi olmaq istəyirəm. 30 nəfər uşağın içərisindən bir səs eşidildi: "Mən polis olacam!" Dönüb səsin gəldiyi tərəfə baxdım. Qarşımda duran 11-ci sinif şagirdi olan bir qız idi. O, digərlərindən fərqli olaraq "Olmaq istəyirəm" deməmişdi, "Olacam" demişdi. Bu mənzərə çox təsir etmişdi mənə. Sevinmişdim. Qızlar içərisindən belə fərqli, iradəli və özünə inamlı birini görmək sevinməyimə səbəb olmuşdu. Sonra ayrıca danışdım onunla, "Mən polis olacam, amma bilmirəm evdə ailəm nə deyər. Keşkə onlar da mənə dəstək olub əlimdən tutsalar" dedi. Bir şey deyə bilmədim. Bu hadisənin üzərindən 3 il keçdi. Keçən günlərdə öyrəndim ki, "polis zad nədi, başımıza oyun açma" deyib qızın oxumasına icazə verilməyib evdə, məktəbi bitirən kimi də zorla evləndirilib. Və beləcə bir arzu daha alovlanmadan söndürülüb, uzadılan bir əl daha tutulmayıb. Sonra o əl tutula bilməyib düşüb yerə.

Əziz valideynlər, unutmayın, siz birinin xəyallarını əlindən alarkən, onun yaşama eşqini də əlindən almış olursunuz. Bunun necə ağır bir mənzərə olduğunu görürsünüz, elə deyil? Belə mənzərələrin yaranmaması onun-bunun deyil, məhz sizin əlinizdədir. Bunu siz bacara bilərsiniz! Övladlarınız arasında fərq qoymayın, onlara dəstək olun. İcazə verin öz xəyallarını reallaşdırsınlar. Ən azından buna cəhd etsinlər. Bunu bacarsalar da, bacarmasalar da bir təcrübə qazanacaqlar və bu təcrübə, onlara sabahkı gün öz ayaqları üstündə dura bilmə gücü verəcək.

Dili şiddət olan bu kirli dünyada kim nə deyər deyə düşünmədən, hər şeyə və hər kəsə rəğmən övladlarına dəstək olan bütün valideynlərə ithafən.

Elcan HACILI
Tbilisi Dövlət Universiteti, Tibb fakültəsi
@mesyoeljan

# LEKSİKOLOJİ QƏTL



**"Başını salla, öl öldüyün yerdə".** Adam bir gün oturur və düşünür ki , görəsən bu yuxarıdakı kəlmə bizim söhbət tariximizdə nə vaxtdan peydah olub, lozunqa çevrilib. Necə olub ki, bu kəlmə genetik bir şeyə çevrilib? Niyə çevrilib? Yəqin ki, biz yer kürəsinin çiynində yaşayanımıza "öl öldüyün yerdə" deyib, ölənimizə də "niyə öldün" deyən yeganə xalqıq. Bizə bu iki kəlmədən çox psixoloji travma verən, ictimai şüuru baltalayan başqa kəlmə olmayıb. Bu iki kəlmə dialoqumuzun damarına çevrildiyi gündən bizi öldürdü. Bir xalq kimi öldürdü. Hər fikri tumurcuqlayanımızı "başını salla" deyib cəsarətinə xəsarət yetirib əsarətə saldıq. Fikri qönçələməmiş.

Bu leksikoloji silahlarla özümüz özümüzü öldürdük. Özümüz-özümüzü sındırdıq. Özümüz-özümüzü bayramsız qoyduq, özümüz-özümüzü hörmətsiz elədik, özümüz öz əlimizlə verdik haqqımızı. Gözümüzü açandan eşitmədik ki, bir valideyn övladına "başını salla" əvəzinə "başını qaldır!" deyə, eşitmədik ki, cəsarət verən, qürrəsini şaha qaldıran bir söz deyilə. Bir dəfə eşitmədik ki, bir dəfə də "kəs səsini" əvəzinə "sözünü de" deyilə. Beləcə öl deyə-deyə cəsarəti öldürülmüş, sınmış, qorxaq, gözü kölgəli, xəfkir nəsillər yetişdi, yetişdirilməyə davam edir. Beləcə xalq olaraq özümüz-özümüzü öldürüb məhv elədik. İnsan həyatının bütün sferalarında qazana-qazana gəlmək əvəzinə itiriə-itirə gedirik. Biz xalq olaraq CƏSARƏT sözünün ilk hərfini tale dəftərimizdən özümüz cırıb atdıq, alın yazımızdakı "cəsarət" sözünün o ilk hərfini özümüz sildik. Hər nəsil özündən kiçik nəslə "kəs səsini, öl öldüyün yerdə" deyə-deyə gətirdi lal-dinməzə, dil-dönməzə çevirdi. Cəsarətin olmadığı yerdə xalqın səsi çıxmaz. "Kəs", "sus", "öl"lə nəsil böyüdən bir xalqdan ömrü boyu səs çıxmaz. Əgər bir xalq – xalq kimi səsi çıxan xalqların cərgəsinə qarışmaq istəyirsə, öz səsini boğmamalıdır, "başını salla, öl" deməməlidir... Haqq pay verilmir, haqq qoparılır, qazanılır. Haqq üçün səs çıxmalıdı, səs çıxarmaq üçün cəsarət lazımdı, cəsarəti olmayan xalqın ictimai qüruru olmaz, qüruru olmayan xalq özünə hörmət etməz, özünə hörmət etməyən xalq isə kirmişdən deyər: "yetimə ay da qara, gün də qara", "dedim nə, demədim nə", "buna da şükür".

***Həmid SADIX***
***Kalinin ictimai məktəbinin müəllimi***

## PARLAMENT ORTA MƏKTƏBLƏRDƏ BURAXILIŞ İMTAHANLARININ LƏĞVİNİ TƏSDİQLƏYİB



Gürcüstan parlamenti üçüncü oxunuşda hökumətin orta məktəblərdə buraxılış imtahanlarının ləğvi ilə bağlı təşəbbüsünü dəstəkləyib. 80 deputat qanun layihəsinin lehinə, 8-i isə əleyhinə səs verib.

Qeyd edək ki, qanun layihəsi üzrə səsvermə aprelin 5-də keçirilsə də, onun təsdiq olunması üçün səslər yetərli olmayıb.

Xatırladaq ki, orta məktəblərdə buraxılış imtahanları 11 və 12-ci siniflərdə keçirilirdi. "Ümumi təhsil haqqında" qanunun qüvvəyə minməsindən sonra attestat almaq üçün şagirdlər bütün fənlər üzrə 10 ballıq sistemlə 5 baldan çox qiymət almalıdırlar. Əvvəlki illərdə buraxılış imtahanlarından kəsilən şagirdlər də bütün fənnlərdən 5-dən çox bal qazanıblarsa, attestat ala biləcəklər.

## GÜRCÜSTAN AZƏRBAYCANLILARI ÜÇÜN AZƏRBAYCANIN ALİ MƏKTƏBLƏRİNDƏ KVOTA AYRILACAQ VƏ AZƏRBAYCANLA GÜRCÜSTAN BİRGƏ ALİ MƏKTƏB YARADA BİLƏR



Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov Gürcüstanın Dmanisi rayonunda yerli azərbaycanlılarla görüşü zamanı bildirib ki, Gürcüstanda yaşayan azərbaycanlılar üçün Azərbaycanın ali məktəblərində xüsusi kvota ayrılacaq. Kvota üzrə universitetlərə qəbul olunacaq tələbələr ödənişsiz təhsil alacaqlar.

Komitə sədri kvotanın ayrılması ilə bağlı Azərbaycan hökumətinə müraciət olunduğunu və Nazirlər Kabinetinin məsələni dəstəklədiyini bildirib.

Saqareco rayonunda yerli azərbaycanlılarla görüşü zamanı isə F.Muradov Azərbaycan və Gürcüstan arasında birgə ali məktəbin yaradılması istiqamətində müzakirələr aparıldığını deyib.

Onun sözlərinə görə, bu məsələ Gürcüstana səfəri çərçivəsində keçirdiyi rəsmi görüşlərdə nəzərdən keçirilib.

"Bir çox ölkələrdə birgə universitet təsis etməklə bağlı təcrübə var. Gürcüstanda təhsil sahəsində islahatlar həyata keçirilir. İnanıram ki, Azərbaycan-Gürcüstan birgə ali məktəbin yaradılmasına dair danışıqlar müsbət nəticələnəcək", - deyə F.Muradov bildirib.

## XARİCDƏ YAŞAYAN AZƏRBAYCANLILAR ÜÇÜN "AZƏRBAYCAN DİLİ VƏ ƏDƏBİYYATI" DƏRSLİYİ HAZIRLANIR

"Xaricdə yaşayan azərbaycanlılar üçün xüsusi olaraq "Azərbaycan dili və ədəbiyyatı" dərsliyi hazırlanır". Bu barədə Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov Dmanisi rayonunda yerli azərbaycanlılarla görüşü zamanı bildirib.

F.Muradov hazırlanacaq dərsliyin Azərbaycandan kənarda yaşayan soydaşlarımız üçün çox vacib olduğunu deyib.

"Dərsliyin yaxın zamanlarda təqdimatı keçiriləcək. Gürcüstan azərbaycanlıları bu dərslikdən istəsələr, onlar üçün də həmin dərsliklər göndəriləcək", - deyə komitə sədri bildirib.

F.Muradov qeyd edib ki, məşğələlər və ədəbi əsərlərin yer aldığı dərsliyin hazırlanmasında xarici ölkələrin təcrübəsindən istifadə olunub.

## 2020-Cİ İLDƏ TƏHSİL BÜDCƏSİ 3 MİLYARD 400 MİLYON LARİ OLACAQ



"Yeni layihənin təşəbbüsünü irəli sürəcəyik və ona əsasən mövcud və ya hər hansı gələcək hakimiyyət bizim ümumi daxili məhsulun 6%-ni, yəni büdcənin 1/4 hissəsini həmişə təhsil və insan yatırımına yönəltməyə məcbur olacaq". Bu haqda baş nazir Mamuka Baxtadze mətbuat konfransında bildirib.

Onun sözlərinə görə, 2022-ci ildə təhsil büdcəsi 3 milyard 400 milyon lari olacaq.

"Biz eyni zamanda öhdəlik götürürük ki, 2020-ci ildə bu məbləğ 2 milyard, 2021-ci ildə 2 milyard yarım, 2022-ci ildə isə bizim ümumi daxili məhsulun 6%-nə bərabər olacaq, yəni 3 milyard 400 milyon lari.

Bu işğal və kasıblıqdan azad olmağın yeganə yoludur. Bu məbləğ təhsil sektorunun məktəbəqədər təhsil, orta təhsil, peşə təhsili, ali təhsil və elm sahələrinə xərclənəcək", - deyə Mamuka Baxtadze bildirib.

## ZURAB JVANİA ADINA MƏKTƏBƏ YENİ DİREKTOR TƏYİN OLUNUB



Zurab Jvania adına Dövlət İdarəçilik Məktəbinə yeni direktor təyin olunub. Gürcüstanın təhsil, elm, mədəniyyət və idman nazirinin müavini İrina Abuladze yeni direktor Ketevan Cakelini məktəbin kollektivinə təqdim edib.

Direktor vəzifəsinə müsabiqə əsasında seçilən K.Cakeli Z.Jvania adına Dövlət İdarəçilik Məktəbinin strateji məqsədləri, inkişaf planları və prioritetləri barədə məlumat verib.

O qeyd edib ki, məktəbdə milli azlıqlar üçün nəzərdə tutulmuş dövlət dili proqamının qiymətləndirilməsi həyata keçiriləcək.

"2014-cü ildən etibarən milli azlıqlardan olan 14 000-ə yaxın gənc proqram üzrə təhsil alıb. Hazırda isə, təxminən, 1 600 etnik azlıq nümayəndəsi təhsilini davam etdirir. Gürcü dilinin tədrisi proqramının daha da inkişaf etdirilməsi nəzərdə tutulub", - deyə K.Cakeli bildirib.

Qeyd edək ki, Z.Jvania adına Dövlət İdarəçilik Məktəbi 2005-ci ildə yaradılıb. Təhsil müəssisəsinin əsas fəaliyyət istiqaməti dövlət strukturlarında çalışanların xüsusi proqramlar vasitəsilə peşəkarlıq səviyyəsinin artırılmasıdır. Məktəb milli azlıq nümayəndələrinin vətəndaş cəmiyyətinə inteqrasiyasına da xüsusi diqqət ayırır. Müəssisənin Kvemo Kartli bölgəsində də regional tədris mərkəzi fəaliyyət göstərir.

Məktəbin keçmiş direktoru Ketevan Maxaraşvili ötən ilin dekabrında Gücüstan prezidentinin milli azlıqlar və gender bərabərliyi məsələləri üzrə müşaviri vəzifəsinə təyin olunub.

## VAHİD MİLLİ İMTAHANLAR ÜÇÜN HƏR İL NEÇƏ MİLYON LARİ XƏRCLƏNİR?!



Qiymətləndirmə və İmtahanlar üzrə Milli Mərkəz tərəfindən Vahid Milli İmtahanların təşkil edilməsi üçün hər il 4 milyon laridən artıq məbləğ xərclənir. Bu haqda Qiymətləndirmə və İmtahanlar üzrə Milli Mərkəzdən "etaloni.ge" saytına məlumat verilib.

Qeyd edək ki, 2019-cu ilin Vahid Milli İmtahanları üçün nəzərdə tutulmuş büdcə 4,400,000.00 (dörd milyon dörd yüz min) lari təşkil edir.

Mərkəzin verdiyi məlumata əsasən, son 3 ildə Vahid Milli İmtahanların təşkili üçün xərclənən məbləğ aşağıdakı kimidir:

• 2016-cı ilin Vahid Milli İmtahanlarının təşkil edilməsi üçün 4,778,000.00 lari xərclənib.

• 2017-cı ilin Vahid Milli İmtahanlarının təşkil edilməsi üçün 4,500,000.00 lari xərclənib.

• 2018-cı ilin Vahid Milli İmtahanlarının təşkil edilməsi üçün 4,768,000.00 lari xərclənib.

2018-ci ilin imtahanları üçün xərclənən məbləğlərin təfərrüatı isə belədir:

• Vahid Milli İmtahanlarda test tapşırıqlarını düzəldənlərin əmək haqqı üçün sərf olunan məbləğ – 730,000.00 lari.

• Müşahidəçilik üçün xərclənən məbləğ (Vahid Milli İmtahanlar və maqistratura, müəllimlərin fənn imtahanları və tələbələrin müsabiqə imtahanlarında işlə təmin olunan müşahidəçilər) – 862,000.00 lari.

• İmtahanlarda müşahidə kameralarının montajı/demontajı üçün – 217,035,87 lari xərclənib.

• İmtahan mərkəzlərinin kommunal xərcləri 67,829.19 lari təşkil edib.

Qeyd edək ki, 2018-ci ildə Vahid Milli İmtahanlar elektron formada keçirilib, testlərin çap olunmasına/elektron versiyalara mərkəz məbləğ sərf etməyib.

*Səhifəni hazırladı: Aynurə ƏLİYEVA*

# GÜRCÜSTANIN CƏNUBİ OSETİYA SİYASƏTİ

**1991-ci ilin sonunda müstəqilliyinə qovuşan Gürcüstan eyni zamanda bir neçə istiqamətlərdən ərazi bütövlüyü təhlükəsi yaşadı. Gürcüstan ərazi bütövlüyü problemi ilə yanaşı ciddi dərəcədə qeyri-sabitlik yaşadı ki, bu da özünü vətəndaş müharibəsi şəklində göstərdi. Bir tərəfdən Abxaziya, Cənubi Osetiya və Acariyanın Gürcüstandan ayrıldıqlarını elan etməsi, digər tərəfdən ermənilərin etnik cəhətdən üstünlük təşkil etdiyi Cavaxetiya bölgəsində muxtariyyət tələbi Gürcüstanın ərazi bütövlüyünə ciddi zərbə oldu.**

**CƏNUBİ OSETİYA PROBLEMİ**

Cənubi Osetiya müstəqilliyini 1990-cı ildə SSRİ-nin dağıldığı ərəfədə elan etdi. Gürcüstan hökuməti Cənubi Osetiyanın müstəqillik istəyinə onların muxtariyyət hüququnu ləğv etməklə və əraziyə ordu yeritməklə cavab verdi. Bu da öz növbəsində Cənubi Osetiya müharibəsinə səbəb oldu. 1991-1992-ci illər vətəndaş müharibəsi nəticəsində Cənubi Osetiya faktiki müstəqillik əldə etsə də, onun müstəqilliyi heç bir dövlət tərəfindən rəsmən tanınmırdı.

**QISA MƏLUMAT**

Cənubi Osetiya Gürcüstanın şimalında beynəlxalq sərhədləri daxilində tanınan ərazidə yerləşir. Cənubi Osetiyanın ərazisi təxminən 3,800 km2 təşkil edir ki, bu da Gürcüstanın ümumi ərazisinin 5,4%-i qədərdir. Gürcüstan Konstitusiyasında bölgə "Keçmiş Cənubi Osetiya Muxtar Vilayəti (bəzi rəsmi sənədlərdə isə "Çxinvali bölgəsi" olaraq təyin olunur. İnzibati ərazisinin böyük hissəsi əsasən Şida Kartli bölgəsinə daxildir.

Müharibədən öncəki sonuncu siyahıya alınmada Cənubi Osetiyanın əhalisi təxminən 98,000 nəfər təşkil edirdi ki, bunun da 66%-i osetin, 29%-i isə gürcülərdən ibarət idi. Avqust müharibəsindən sonra təxminən 20,000 gürcü öz evlərini tərk etdi, onların yaşadıqları kəndlər isə dağıdıldı. Cənubi Osetiyanın de facto hökumətinin məlumatlarına əsasən, bölgənin əhalisi 2015-ci ildə təxminən 54,000 təşkil edirdi ki, onun da 30,000-i Çxinvalidə yaşayır. Əhalinin etnik tərkibi 90% osetin, 7% gürcülərdən ibarətdi. Avqust müharibəsindən sonra etnik gürcülər demək olar ki, Cənubi Osetiya ərazisini tərk etmişdilər. Osetin və rus dilləri qondarma respublikanın rəsmi dilləri hesab edilir.

**MÜNAQİŞƏNİN TARİXİ**

1921-ci ildə Gürcüstanın Qırmızı ordu tərəfindən işğalından sonra, 1922-ci ildə Gürcüstan SSR-in tərkibində Cənubi Osetiya Muxtar Vilayəti yaradıldı. Cənubi Osetiya Muxtar Vilayətinin yaradılması bolşeviklərin osetinlərə Gürcüstan Demokratik Respublikasına qalib gəlməkdə etdiyi yardıma görə minnətdarlıq əlaməti idi.

1990-cı ildə separatçı hakimiyyət "Cənubi Osetiya Sovet Demokratik Respublikası" adı altında Gürcüstandan ayrıldığını və müstəqilliyini elan etdi. Buna cavab olaraq, 10 dekabr 1990-cı ildə Gürcüstan Ali Məhkəməsi Cənubi Osetiyanın muxtariyyət statusunu ləğv etdi və ərazisi Axalqori, Qori, Cava, Kareli, Oni və Saçxere rayonlarına bölündü.

1991-1992-ci illərdə bölgədə hərbi əməliyyatların aktiv fazası başladı. 1992-ci ildə Soçidə imzalanmış atəşkəs müqaviləsi hərbi əməliyyatların dayandırılmasını və Rusiyanın komandanlığı altında birgə sülhməramlı qüvvələrin yaradılmasını nəzərdə tuturdu.

**AVQUST MÜHARİBƏSİ**

Mixail Saakaşvilinin prezidentliyi dövründə paytaxt Tbilisidə 2007-ci ilin aprelində Cənubi Osetiya Müvəqqəti Administrasiyası yaradıldı ki, bunu da Gürcüstan hökuməti yeganə qanuni Cənubi Osetiya hökuməti hesab edir. Müvəqqəti Administrasiya Gürcüstan hökuməti tərəfindən Cənubi Osetiyanın statusunun həllinə aparan bir keçid tədbiri kimi yaradıldı.

Müvəqqəti Administrasiyanın yaradılması qondarma "Cənubi Osetiya Respublikası" tərəfindən narazılıqla qarşılandı. Həmin vaxtdan etibarən, təmas xəttində atəşkəsin tez-tez pozulması mütəmadi xarakter almağa başladı. Nəticədə, təmas xəttinə yaxın yaşayan ərazilərdə mülki şəxslər ağır yaralanır və ya öldürülürdülər. Xüsusilə də 2008-ci ilin avqustunda atəşkəsin pozulmasının intensivləşməsi Saakaşvili administrasiyasını separatçı hakimiyyətə birdəfəlik son qoymaq üçün Çxinvaliyə ordu yeritməyə məcbur etdi.

2008-ci ilin avqustunda Gürcüstanın ikinci dəfə Cənubi Osetiyaya ordu yeritməsi yenidən Cənubi Osetiya müharibəsinə səbəb oldu. Rusiyanın da osetinlərin tərəfində çıxış etdiyi müharibə Gürcüstanın məğlubiyyəti ilə nəticələndi. Bu müharibədən sonra bir neçə ölkə Cənubi Osetiyanın müstəqilliyini rəsmən tanıdı.

2008-ci ildə baş vermiş müharibə nəticəsində Cənubi Osetiya iqtisadiyyatına 500 milyon ABŞ dolları həcmində ziyan dəydi. Müharibədən sonra Rusiya hököməti Cənubi Osetiyaya 600 milyon dollar investisiya yatırmaq lahiyəsi irəli sürdü. Həmçinin, müharibə bitdikdən sonra Rusiya bölgəyə 3,700 nəfər əsgərdən ibarət daimi kontingent yerləşdirdi.

**GÜRCÜSTAN DÖVLƏTİNİN SİYASƏTİ**

Gürcüstan dövlətinin Cənubi Osetiya siyasəti hər zaman həssas olub. Gürcüstan hökuməti hələ prezident Zviad Qamsaxurdianın dövründən başlayaraq Cənubi Osetiya qondarma respublikası ilə birbaşa gizli danışıqlar aparıb. Üçüncü tərəfin iştirakı olmadan gizli danışıqlar mərhum prezident Eduard Şevardnadze dövründə də mövcud olub və bu danışıqların əsas predmeti müəyyən güzəştlər əsasında Cənubi Osetiyanın Gürcüstan tərkibinə qaytarılması olub.

Qızılgül inqilabından sonra hakimiyyətə gələn Mixail Saakaşvilinin prezidentliyinin ilk ilində Münaqişələrin Həlli Məsələləri üzrə Dövlət Nazirliyi təsis olundu. Dövlət nazirliyinin əsas fəaliyyəti Gürcüstanın nəzarətində olmayan münaqişə bölgələrinin yenidən Gürcüstanın tərkibinə qaytarılması ilə bağlı yaranan məsələləri koordinasiya etməkdən ibarət idi. 2007-ci ildən etibarən Gürcüstan hökuməti Cənubi Osetiyaya Gürcüstan dövləti daxilində muxtar respublika statusu təklif edir.

2008-ci ilin əvvəlində Münaqişələrin Həlli Məsələləri üzrə Dövlət Nazirliyini əvəzləyən Reinteqrasiya Dövlət Nazirliyinin yaradılması dərhal Çxinvalidə mənfi reaksiya doğurdu. Onlar üçün "reinteqrasiya" termini o demək idi ki, əhalinin fikrinə məhəl qoymadan bölgə Gürcüstana reinteqrasiya ediləcək.

Yeni nazirlik münaqişənin sülh yolu ilə həllini üç səviyyəli 2+2+2 formatında təklif etdi. Birinci səviyyəyə Çxinvali separatist hakimiyyətinin və Cənubi Osetiya Müvəqqəti Administrasiyasının yerli rəhbərləri daxil olmalı idi. İkinci səviyyəyə münaqişəyə beynəlxalq hüquqi tərəflər kimi Rusiya və Gürcüstan daxil olmalı idi. Üçüncü səviyyəyə isə danışıqların bitərəf beynəlxalq vasitəçiləri kimi ATƏT və AB daxil olmalı idi. Yeni format gözlənildiyi kimi Rusiya və Cənubi Osetiya rəhbərliyi tərəfindən rədd edildi.

"Gürcü arzusu" partiyası hakimiyyətə gəldikdən sonra 2014-cü ildə Reinteqrasiya Dövlət Nazirliyi Barışıq və Vətəndaş Bərabərliyi Dövlət Nazirliyi ilə əvəz olundu. Barışıq və Vətəndaş Bərabərliyi Dövlət Nazirliyinin əsas fəaliyyəti münaqişə bölgələrinin və orada yaşayan əhalinin Gürcüstana reinteqrasiya olunmasına yardım etmək və yeni sülh təşəbbüsü yaratmaqdan, həmçinin Gürcüstanın nəzarətində olmayan ərazilərlə bağlı danışıqları Cenevrə formatında davam etdirilməsinə yardım etməkdən ibarətdir.

Cenevrə Beynəlxalq Müzakirələri 2008-ci ilin oktyabrında Cenevrədə (İsveçrə) 2008-ci ilin avqust müharibəsinin nəticələrini aradan qaldırmaq məqsədilə başlandı. Belə bir formatın yaradılması haqqında qərar 12 Avqust 2008-ci il atəşkəs razılaşmasına əsasən qəbul edilmişdir. O dövrdən etibarən Cenevrə müzakirələri ildə dörd dəfə keçirilir.

Cenevrə prosesi ATƏT, AB və BMT-nin həmsədrliyi ilə Gürcüstan, Rusiya, ABŞ və Gürcüstanın ayrılmış bölgələri - Abxaziya və Cənubi Osetiya nümayəndələrini bir araya gətirir. Bundan əlavə, keçmiş Cənubi Osetiya Muxtar Vilayətinin Müvəqqəti Adminstrasiyasının rəhbəri və Abxaziya Muxtar Respublikası hökumətinin sədri də Cenevrə danışıqlarında iştirak edir. Bu formatın bütün iştirakçıları fərdi statusa malikdir.

Cenevrədə beynəlxalq müzakirələr iki paralel işçi qrupda keçirilir. Birinci qrup, Gürcüstanın işğal olunmuş Abxaziya və Çxinvali bölgəsində təhlükəsizlik və sabitlik məsələlərinə (məsələn, işğal olunmuş ərazilərdə güc tətbiq edilməməsi və təhlükəsizlik mexanizmlərinin yaradılması barədə bəyanatlar) yönəlibdir. İkinci qrup, qaçqın və məcburi köçkünlərin öz evlərinə təhlükəsiz və ləyaqətlə qaytarılması ilə bağlı məsələləri (həmçinin, maddi-mədəni irs məsələləri, sərbəst hərəkət azadlığı və s.) müzakirə edir.

2008-ci il Rusiya-Gürcüstan müharibəsindən sonra qondarma Cənubi Osetiya Respublikası Rusiya, Venesuela, Nikaraqua, Nauru və Suriya tərəfindən rəsmi olaraq tanınmışdı. Cənubi Osetiya de facto Gürcüstanın nəzarəti xaricində olmasına baxmayaraq, BMT-nin əksər üzvləri de jure olaraq Gürcüstanın beynəlxalq tanınan sərhədləri daxilində tanıyırlar.




23 oktyabr 2008-ci ildə Gürcüstan Parlamentinin qəbul etdiyi və 31 oktyabrda prezident Mixail Saakaşvilinin də imzaladığı "İşğal olunmuş ərazilər haqqında" qanun qəbul etdi. Qəbul olunan qanun Cənubi Osetiyanı Gürcüstanın ayrılmaz hissəsi kimi tanıyır. Qanun həmçinin, işğal olunmuş ərazilərə Gürcüstanın nəzarətində olmayan başqa ərazidən ilk dəfə daxil olmağa görə əvvəllər cinayyət məsuliyyəti nəzərdə tuturdu ki, 2013-cü il dəyişikliyinə əsasən inzibati məsuliyyətlə əvəz olundu.

**NƏTİCƏ**

Müxtəlif dövrlərdə aparılan danışıqlara baxmayaraq Cənubi Osetiya heç zaman yenidən Gürcüstanın tərkibinə qayıtmaq istəməyib, müstəqil olmaq da istəməyib, daha çox Rusiyaya meyl edib. Məhz elə buna görə də Saakaşvili administrasiyası münaqişənin birdəfəlik çözümünü hərbi yolla həll etməkdə gördü. 2008-ci il Rusiya-Gürcüstan arasındakı müharibədən sonra bölgənin bütün ərazisi tamamilə rus işğal ordusunun nəzarəti altına keçdi. 2017-ci ildə Rusiya Cənubi Osetiya ilə separatist bölgənin silahlı qüvvələrini özünə birləşdirmək haqqında müqavilə imzaladı ki, bu da münaqişənin həllini daha çətin duruma saldı.

Bundan əlavə, Rusiya beynəlxalq aləmdə geostrateji mövqeyindən istifadə edərək, Cənubi Osetiyanın digər dövlətlər tərəfindən tanıdılması istiqamətində işlər aparır. Hazırda belə dövlətlərin sayı Rusiya da daxil olmaqla beşdir. Cənubi Osetiyanın müstəqilliyini tanıyan dövlətlər bu və ya digər formada Rusiyadan asılı vəziyyətdə olan dövlətlərdi. Belə ki, Rusiya həmin dövlətlərə təsir etmək mexanizmindən istifadə edərək Cənubi Osetiyanın müstəqilliyinin tanıdılması üçün təzyiqlər edir. Bəzi hallarda kiçik dövlətlərə müəyyən güzəşt əsasında verilən az məbləğli kreditləri sonradan onlara bağışlayaraq əvəzində qondarma respublikanın tanınmasını tələb edir. Gürcüstan dövləti də öz növbəsində separatist rejimin müstəqilliyini tanıyan dövlətləri danışıqlar vasitəsilə və ya pulla geri almaq istiqamətində işlər aparır və bir sıra hallarda buna nail olur.

Bəlli məsələdir ki, Gürüstan dövləti heç zaman öz ərazilərinin itirilməsi ilə barışmayacaq, ancaq yaxın gələcəkdə də münaqişənin sülh yolu ilə həllini gözləmək düzgün olmazdı. Xüsusilə də, bölgədə Rusiyanın geosiyasi və geostrateji maraqlarının olması münaqişənin uzanmasına səbəb olur. Hazırda Gürcüstanın xarici siyasəti üçün prioritet məsələlərdən biri Rusiya tərəfindən Gürcüstanın ərazi bütövlüyünə müxtəlif istiqamətlərdən olan təhdidləri zərərsizləşdirməkdir.

***Aybəy İSAYEV***
***Ekspert***

## MARNEULİDƏ GÜRCÜSTAN AZƏRBAYCANLILARININ İNTEQRASİYA MƏRKƏZİNİN AÇILIŞI OLUB



Marneuli rayonunda Gürcüstan Azərbaycanlılarının İnteqrasiya Mərkəzinin (GAİM) açılışı olub. Açılış mərasimində Azərbaycanın Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov, Kvemo Kartli bölgəsinin qubernatoru Şota Rexviaşvili, barışıq və vətəndaş bərabərliyi məsələləri üzrə dövlət naziri Ketevan Tsixelaşvili və digər rəsmi şəxslər iştirak ediblər.

Ş.Rexviaşvili Marneulidə inteqrasiya mərkəzinin açılmasını mühüm hadisə adlandırıb. O bildirib ki, Gürcüstan hökuməti azərbaycanlı vətəndaşların inteqrasiyasına böyük diqqət ayırır: “Gürcüstan və Azərbaycan xalqları tarixən dostluq və qardaşlıq şəraitində yaşayıblar. İki ölkə arasında strateji tərəfdaşlıq münasibətləri sabit inkişaf edir və Gürcüstan dövləti Azərbaycanla mövcud münasibətlərin möhkəmləndirilməsini dəstəkləyir”.

K.Tsixelaşvili yeni açılan mərkəzin rəhbəri olduğu qurumun milli azlıqlarla bağlı fəaliyyət istiqamətinə dəstək verəcəyini bildirib: “Gürcüstanın müxtəlifliyi bir dəyərdir və bu dəyər qorunub saxlanılmalıdır. Ölkədə yaşayan milli azlıqların vətəndaş cəmiyyətinə inteqrasiyası elə formada həyata keçirilməlidir ki, onların etnik və milli mənsubiyyəti qorunub saxlanılsın”.

Dövlət naziri Azərbaycan dövlətinə, SOCAR şirkətinin Gürcüstandakı nümayəndəliyinə azərbaycanlıların inteqrasiyası və sosial problemlərin həlli istiqamətində göstərdiyi böyük dəstəyə görə minnətdarlığını bildirib.

F.Muradov, öz növbəsində, tədbir iştirakçılarına Azərbaycan prezidenti İlham Əliyevin salamlarını çatdırıb. O, Azərbaycan və Gürcüstan arasındakı dostluğun sarsılmaz olduğunu və ölkələr arasındakı münasibətlərin daha da möhkəmləndirildiyini bildirib: “Marneulidə açılan inteqrasiya mərkəzi ilə bağlı təklifi ötən il yerli gənclər irəli sürüblər. Mərkəzin açılması olduqca vacib layihədir və ümid edirəm ki, bu məkan yerli azərbaycanlıları narahat edən bəzi məsələlərin həllinə dəstək olacaq”.

Daha sonra çıxış edən GAİM-nin icraçı direktoru Aygül İsayeva mərkəzin yaradılmasının əsas məqsədləri və fəaliyyət istiqamətləri barədə danışıb.

Onun sözlərinə görə, mərkəzin əsas məqsədi Azərbaycan və Gürcüstan arasında elm, təhsil, mədəniyyət və idman sahələrində mövcud münasibətlərin dərinləşdirilməsi və yerli azərbaycanlıların vətəndaş cəmiyyətinə inteqrasiyasına dəstək verməkdir: “Mərkəzdə Azərbaycan, gürcü və ingilis dili, Azərbaycan və Gürcüstan tarixi tədris olunacaq və idman dərnəkləri fəaliyyət göstərəcək”.

Rəsmi açılış mərasimindən sonra qonaqlar GAİM-də yaradılmış şəraitlə tanış olublar.

Sonda tədbir iştirakçılarına Azərbaycan və Gürcüstanın milli rəqsləri təqdim olunub.

Mərasimə Azərbaycanın Gürcüstandakı səfiri Dursun Həsənov, Türkiyənin Gürcüstandakı səfiri Fatma Ceren Yazqan, Marneuli rayonunun rəhbər şəxsləri, Gürcüstan parlamentinin azərbaycanlı deputatları, gürcü və azərbaycanlı ziyalılar, gənclər də qatılıblar.

**Mənbə: Report**

## VAHİD MİLLİ HƏRƏKAT PARTİYASI MARNEULİ RAYONUNUN İCRA BAŞÇISI VƏZİFƏSİNƏ NAMİZƏDİNİ TƏQDİM EDİB

Vahid Milli Hərəkat Partiyası (VMHP) Marneuli rayonunun İcra Hakimiyyəti başçısı vəzifəsinə Aqil Mustafayevin namizədliyini rəsmən təqdim edib.

Marneulidə keçirilmiş təqdimat mərasimində VMHP sədri Qriqol Vaşadze, partiyanın parlamentdəki deputatı Azər Süleymanov və digər şəxslər iştirak ediblər.



Qeyd edək ki, Marneulidə icra başçısı vəzifəsinə seçkilər mayın 19-da keçiriləcək. A.Mustafayevlə yanaşı seçkilərdə hakim “Gürcü arzusu” Partiyasının namizədi Zaur Dargallı, Avropalı Gürcüstan Partiyasının namizədi Əhməd İmamquliyev və müstəqil namizəd olaraq Gürcüstanın Azərbaycanlı Hüquqşünaslar Assosiasiyasının təsisçisi Əli Bədirov mübarizə aparacaq.

## KUTAİSİDƏ ELEKTRİK ENERJİSİ İLƏ İŞLƏYƏN AVTOMOBİLLƏR İSTEHSAL EDİLƏCƏK

Kutaisi şəhərində elektik enerjisi ilə işləyən avtomobillər (elektromobillər) istehsal edəcək fabrik inşa ediləcək. Bu barədə baş nazir Mamuka Baxtadze bildirib.

Onun sözlərinə görə, dünyanın iri avtomobil istehsalçılarından olan “Changan” şirkəti Gürcüstanda elektromobillər istehsal edəcək fabrikin tikintisi barədə qərar qəbul edib.

“Regionda ilk dəfə olaraq Gürcüstanda elektromobillərin istehsalına başlanılacaq. “Changan” şirkəti



“Volvo”, “Volkswagen” və “Ford” şirkətlərinin strateji tərəfdaşıdır. 2020-ci ildən etibarən elektrik avtomobillərin satışını həyata keçirəcəyik”, - baş nazir bildirib.

M.Baxtadze deyib ki, fabrikin istehsal gücü 40 min avtomobil olacaq ki, bunun da 50%-i daxili bazar üçün nəzərdə tutulacaq. Elektromobillərin 20 mini isə Avropa İttifaqı ölkələrinə ixrac olunacaq.

“Bu, böyük uğurdur. Gürcüstanda istehsal olunacaq elektromobillər ölkədən Avropa bazarına ixrac ediləcək əsas mal olacaq. Fabrikdə elektrik avtomobillərin 4 modeli istehsal ediləcək və nəqliyyat vasitələri Gürcüstanın bütün vətəndaşları üçün əlçatan olacaq”, - deyə M.Baxtadze bildirib.

## QARDABANİ BƏLƏDİYYƏSİNİN KOSALI VƏ NAZARLI KƏNDLƏRİNDƏ UŞAQ BAĞÇALARININ AÇILIŞI OLUB



Qardabani bələdiyyəsinin Kosalı və Nazarlı kəndlərində uşaq bağçalarının təntənəli açılışı olub.

Kosalıda yeni açılmış bağçada 60 uşaq məktəbəqədər təhsil alacaq. Bağçada 11 nəfər yerli sakin işlə təmin olunub.

Nazarlı kəndinin uşaq bağçasında isə 70 uşaq məktəbəqədər təhsil alacaq. Qeyd olunan bağçada da 11 nəfər yerli sakin işlə təmin olunub.

Bağçaların açılış mərasimində majoritar deputat Savalan Mirzəyev, Kvemo Kartli qubernatoru Şota Rexviaşvili, Qardabani bələdiyyəsinin meri Ramaz Budağaşvili, merin müavini Dünyamalı Hacıyev, sakrebulo sədri Tariel Canxoteli və məktəbəqədər tədris müəssisələrinin rəhbəri Cemal Davitadze iştirak edib.

Hər iki bağçanın bərpasına və vacib inventarla təchiz edilməsinə yerli büdcədən, ümumilikdə, 41187 lari xərclənib.

2018-ci ildən indiyə qədər bələdiyyə miqyasında 27 uşaq bağçasında bərpa işləri həyata keçirilib və bunun üçün yerli büdcədən 3 milyon lariyə qədər vəsait xərclənib.

Yaxın gələcəkdə Kalinino, Candar və Qaracalar kəndlərində də əlavə üç yeni bağçanın açılışı gözlənilir. Bələdiyyənin maliyyə dəstəyi ilə 2019-cu ildə beş yeni uşaq bağçasının inşası da planlaşdırılır.



## QABAL KƏNDİNDƏ AZƏRBAYCAN DİLLİ YENİ MƏKTƏB TİKİLƏCƏK



Laqodexi rayonunun Qabal kəndində Azərbaycan dilli yeni məktəb tikiləcək. “Report”un yaydığı məlumata əsasən, bu barədə Gürcüstan parlamentinin Laqodexi və Kvareli rayonları üzrə majoritar deputatı Quram Macaraşvili bildirib.

Onun sözlərinə görə, yeni məktəb Gürcüstan hökumətinin dəstəyi ilə tikiləcək.

“Hazırda Qabal kəndində bir məktəb fəaliyyət göstərir. Yeni məktəbin inşası ilə paralel olaraq fəaliyyətdə olan məktəbin binası da bərpa olunacaq”, - bildirib Q.Macaraşvili.

Deputat qeyd edib ki, Qabal kəndində uşaq bağçasının inşası və digər infrastruktur layihələrin həyata keçirilməsi ilə bağlı planlar da hazırlanır.

HAQQIN SÖZÜ – SÖZÜN HAQQI 15 APREL 2019-CU İL/ №007 (87)

Yeni YOL

yeni_yol@mail.ru İCTİMAİ QƏZET იენი იოლი საზოგადოებრივი გაზეთი qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur

# 2019-CU İLİN GÖSTƏRİCİLƏRİNƏ ƏSASƏN DÜNYA ƏHALİSİNİN SAYI



Dünya əhalisinin sayı günü-gündən artır. Doğuşun artması və ölüm hallarının azalması dünya demoqrafiyasına güclü təsir etdi. 2019-cu ilin göstəricilərinə əsasən, dünya ölkələrinin 80%-ində əhalinin sayı artıb. Ölkələr üzrə əhalinin son göstəricilərini təqdim edirik:

Ölkələrin siyahısına keçməzdən əvvəl xatırladaq ki, 2018-ci ildə dünya miqyasında doğum zamanı ölüm halları olduqca azalıb, bundan əlavə çox ölkələrdə siqaret çəkənlərin sayı demək olar ki, yarıya qədər enib və orta yaş göstəricisi də artıb.

2019-cu ilin göstəricilərinə görə, dünya əhalisi təqribən 7,7 milyard təşkil edir. Bunun üçdə biri Çin və Hindistanın payına düşür. Belə çıxır ki, birinci və ikinci yeri Çin və Hindistan tutur.

***Avropa ölkələrinin əhalisinin sayı***

2019-cu ilin göstəricilərinə əsasən, Avropa ölkələrində əhalinin az sayda artması qeydə alınıb. Avropalılar daha çox sosialistdirlər və ailə qurmaq və artmaqla az maraqlanırlar. Cədvəli sizə təqdim edirik:

Rusiya - 143,895,551
Almaniya - 82,367,256
Böyük Britaniya - 66,959,016
Fransa - 65,480,710
İtaliya - 59,216,525
İspaniya - 46,441,049
Ukrayna - 43,795,220
Polşa - 38,028,278
Rumıniya - 19,413,360
Hollandiya - 17,132,908
Belçika - 11,562,784
Yunanıstan - 11,124,603
Çexiya - 10,630,589
Portuqaliya - 10,254,666
İsveç - 10,053,135
Macarıstan - 9,655,361
Avstriya - 8,766,201
Serbiya - 8,733,407
İsveçrə - 8,608,259
Bolqarıstan- 6,988,739
Danimarka - 5,775,224
Finlandiya - 5,561,389
Slovakiya - 5,450,987
Norveç - 5,400,916
Xorvatiya - 4,140,148
Moldova - 4,029,450
Bosniya - 3,501,774
Albaniya - 2,938,428
Litva - 1,911,108
Kosova - 1,809,286
Estoniya - 1,303,798
Kipr - 1,219,791
Monteneqro - 629,355
Lüksemburq - 596,992
Malta - 433,245
İslandiya - 340,566
Andorra- 77,072
Lixteynşteyn - 38,404
San-Marino - 33,683

***Asiya ölkələrinin əhalisinin sayı***

Dünyanın ən çox əhalisi bu kontinentdədir. 2018-ci ilin göstəriciləri ilə müqayisədə Asiyada əhali yenidən hiss olunacaq dərəcədə artıb:

Çin - 1,420,062,022
Hindistan - 1,368,737,513
İndoneziya - 269,536,482
Pakistan - 204,596,442
Banqladeş - 168,065,920
Rusiya - 143,895,551
Yaponiya - 126,854,745
İran - 82,820,766
Türkiyə - 82,446,605
İraq - 40,412,299
BƏƏ - 34,140,662
Suriya - 18,499,181
Azərbaycan- 10,014,575
İsrail - 8,583,916
Gürcüstan - 3,904,204
Ermənistan - 2,936,706

***Şimali və Cənubi Amerika ölkələrinin əhalisinin sayı***

Amerika kontinenti ölkələrinin əhalisi hər il artır. Birinci və ikinci yeri ABŞ və Braziliya tutur:

ABŞ - 329,093,110
Braziliya - 211,642,118
Meksika - 131,554,754
Argentina - 44,898,411
Kanada - 37,279,811
Çili - 18,268,001
Kuba - 11,490,589

***Afrika ölkələrinin əhalisinin sayı***

Afrikada əhali son illərdə davamlı olaraq artır. 2018-ci illə müqayisədə Afrikada milyonlarla insan artımı olub:

Nigeriya - 198,446,558
Misir - 100,283,766
Konqo Demokratik Respublikası - 86,727,573
Cənubi Afrika Respublikası - 66,387,637
Keniya - 51,589,907
Əlcəzair - 42,348,021
Mərakeş - 36,416,648
Kamerun - 25,312,993
Seneqal - 16,521,428

***Avstraliya və Okeaniya ölkələri əhalisi***

Avstraliya və Okeaniyada əhalinin artımı XXI əsrin başlanğıcından qeydə alınır:

Avstraliya - 22,112,065
Yeni Zelandiya - 4,108,037
Papua-Yeni Qvineya - 5,172,033
Havay adaları - 1,211,537
Fici adaları - 856,346

*Mənbə: İntermedia.ge*
*Gürcü dilindən tərcümə:*
*Aynurə ƏLİYEVA*

# ŞENGEN ÖLKƏLƏRİNƏ DAXİL OLMAQ ÜÇÜN LAZIM OLAN BÜDCƏ



Səyahət büdcəsini hesaba alarkən ilk komponent xarici ölkə sərhəddini keçən zaman lazım olan məbləğin dəyəridir. Ölkələr bunu beynəlxalq təşkilatların tövsiyyəsi ilə müəyyən edir. Bəs, Şengen ölkələrinə səyahət etmək üçün nə qədər pul lazımdır?

*Fransa*

Avropa Komissiyasının müəyyənləşdirdiyinə əsasən, Fransaya səfər etmək istəyənlər səyahət etməmişdən əvvəl qalacağı yeri kirayələməyibsə, konsulluq və ya sərhədçiyə gündəlik 120 avro dəyərində nəzərdə tutulmuş məbləği təqdim etməlidir. Əgər sayahətçinin mehmanxana kirayəsi varsa, o zaman gündəlik nəzərdə tutulmuş məbləğ mehmanxana kirayəsinə əsasən, hər gün üçün 65 avrodur. Əgər səyahətçi aşağı qiymətə olan yaşayış yerinin kirayəsini təqdim edərsə, gündəlik nəzərdə tutulmuş məbləğ 35 avroya qədər azalacaq.

*Almaniya*

Avropa Komissiyasının Almaniyaya səyahət zamanı müəyyən etdiyi gündəlik nəzərdə tutulan məbləğ 45 avrodur. Mehmanxananın kirayələndiyini təsdiq edən sənəd belə məbləği dəyişmir.

*Yunanıstan*

Yunanıstana səyahət edənə qədər xərcləri sonrakı göstəricilərə əsasən hesablayın: Gündəlik nəzərdə tutulan məbləğ 50 avro müəyyən edilib. 5 gün səyahət edəcəyiniz halda 300 avroluq büdcənizin olmasını təsdiq etməli olacaqsınız. Nəzərə alın ki, yetkinlik yaşına çatmamış şəxslər üçün məbləğ yarıya bölünür. Bu sərəncam da Avropa Komissiyası tərəfindən müəyyən edilib.

*İspaniya*

Əgər İspaniyaya səyahəti 10 gündən az müddətə planlaşdırırsınızsa, Avropa Komissiyasının tövsiyyəsinə əsasən, ümumi büdcə 574 avro dəyərində təqdim olunmalıdır. 10 və ya daha uzun müddətli səyahət zamanı isə gündəlik nəzərdə tutulan məbləğ 71 avrodur.

*Polşa*

Daxili işlər və administrasiya nazirinin reqlamentinə əsasən Avropa Komissiyasının 2008-ci ilin 22 dekabrına olan məlumatına görə, Polşa Respublikasının ərazisinə daxil olan zaman xarici vətəndaş Polşa səfirliyinə və ya konsulluğa səyahət üçün nəzərdə tutulmuş büdcəni sonrakı qaydada təqdim etməlidir:

Əgər 3 günlük səyahətə hazırlaşırsınızsa ümumi hesabda 300 zlot və ya 68 avro nəzərə almalısınız.

Əgər səyahət dövrünə 3 gün əlavə olunarsa, bu halda hər gün üçün 100 zlot və ya 25 avro nəzərə almalısınız.

Əgər yaşayış yerinin xərclərini üçüncü şəxs ödəyirsə, gündəlik nəzərdə tutualan məbləğ 20 zlot və ya 4.5 avro azalır.

Təsisçi:
"Gürcüstan Gənclərinə Yardım Və Maarifləndirmə Təşkilatı"

Redaktor:
Azər Musaoğlu
Yayım Direktoru:
Hacı Bəkiroğlu
Qrafik dizayn:
Elsevər Əhmədov

ÜNVAN: Qardabani şəh. Kolxoz küç, 4
TEL: (+995) 555 96 18 68
599 54 12 92
EMAİL: yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet həlalik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.